# Xoştəb nazir

*Abbas ağa NAZİR*

## Millətə xitab

Əsarət tərk olub, tutdu yerin hürriyyət, ey millət!
İşıqlandı cahan, rəf oldu yeksər zülmət, ey millət!
Səfavü zövqə təbdil oldu dərdü möhnər, ey millət!
Səadət verdi üz axır, yox oldu zillət, ey millət!
Gözün aydın! Açıldı babəxtü dövlət, ey millət!

Yox oldu müstəbid dövranı, hala özgə dövrandır,
Dünən zəncirə pabəstə, bu gün azadə insandır.
Bu halda nəfsinə hər kəs özü bəy, xanü sultandır,
Hamı millət hüquq və heysiyyətcə indi yeksandır,
Səna, həm şükr eylə, hürriyyət oldu qismət, ey millət!

Vətən içrə bu halda üz verən əhvalə ver fikrin.
Bax ətrafa, cahanda söylənən əqvalə ver fikirin.
Bütün millətlər içrə işlənən əfhalə ver fikrin.
Unut keçmişləri bilmərrə, istiqbalə ver fikrin.
Yəqin eylə ki, bir də maziyə yox ricər, ey millət!

Deyil yatmaq zamanı, fürsəti fövt etmə, bidar ol,
Bütün əfkarini cəm eylə halə, başə huşyar ol.
Vüqui-kardan et istifadə, nəfibərdar ol.
Hüğuqin istə, azadə olmağa mütləq tələbkar ol.
Ayıq ol, sərhesab ol, etmə qəflət, millət, ey millət!

Oyanmazsan, yatar olsan bu yerdə bir də sən dahı,
İtirsən bir də tapmazsan nicatı daha sən rahi,
Sənə lazım bilib verdim həqiqətdən mən agahi,
Rəva görmə dəxi minbəd iqfalı, sən Allahi,
Qənimət bil, amandır, etmə fövt fürsəti, ey millət!

Əvail əsrlərdə tutduğun vəziyyətin yad et,
Tarixi-cahanda zikr olan keyfiyyətin yad et.
O parlaq günlərin, millətin heysiyyətin yad et.
Cahanda qalibiyyət kəsb edən qövmiyyətin yad et,
Qabağa, hümət, ey millət! Qabağa qeyrət, ey millət!

Özün meydanə at, qeyri millət var olduğun bilsin,
Həqiqi halın olmağında muxtar olduğun bilsin,
Yaşayış etməyə hürrün səzavar olduğun bilsin,
Hümum işdə onlarla həm əfkar olduğun bilsin,
Yəqin etsin ki, yoxdur zərrəcə ziddiyyət, ey millət!

Çağır bir yerdə iş görsün bütün övladi-İslamı,
Vifağü ittihadə dəvət et əhfadi-İslamı,
Eylə keçmişdəki tək təzədən abad İslamı,
Qübarü ləkədən bilmərrə et azad İslamı,
Mübərra et nalayiqdən onu, ver zinət, ey millət!

Əlində var ikən fürsət, çalış tut hər işin möhkəm,
Gecə-gündüz işə davran, təqafül eyləmə bir dəm,
Sağalt əndamını, dünyada gəz biqüssəvü biqəm,
Müdavətə şüru et, bağla köhnə yarana məlhəm,
Yaşa azadə, çəkmə kimsədən sən minnət, ey millət!

Çalış, vermə əlindən bir də sən hürriyyəti, zinhar,
Məbadə ki, düşə boynun əsarət qeydinə təkrar,
Sənin tazə hökumət, şükr, yarındır, deyil əğyar;
Dəxi qısqanma, get hər yerdə eylə dərdini izhar,
Çəkinmə kimsədən sən, eylə kəsbü cürət, ey millət!

Gərəkdir kamilən bərpa ola hürriyyəti-nisvan,
Buna əks olmağa alimnümalar tapmaya meydan
Müsaiddir buna başdan-ayağa ayati-Quran,
Nə lazımdır bizə artıq bu işdə hüccətü bürhan,
Məgər Quranımız yetməzmi kafi hüccət, ey millət!

Buraxma ixtiyarın büsbütün əmmamədaranə,
Havayi nəfs üçün məna verən ayati-Qurana.
Səni xabi-cəhalətdə yatırdan kor-koranə,
Özünü bir də bəla girdabına atma, çəkil yanə.
Götür keçmişdəki halından indi ibrət, ey millət!

Verilməzsə kəmalınca əgər nisvana hürriyyət,
Olunmazsa olardan rəf zəncirü übidiyyət,
Müzəvvir felü ruhanilərə olmazsa xətmiyyət,
Onların bidətindən etməz isə xəlq əgər nifrət,
Döyül zənnimcə mümkün pişrəftü sibqət, ey millət!

Keşirmə vəqti bihudə, laqqırtı güftəgu ilə,
Yapış ciddiyyətlə, felü iş aşmaz hay-huy ilə,
Çətindir məqsədə çatmaq mücərrəd ariz ilə,
Əməl lazım! Əməl lazım! Vəli nəfsi-niku ilə.
Ol havi gərək, əmali xeyri niyyət, ey millət!

İnaniyyətdən əl çək, mütləqa şəxsi qərəzdən qaç,
Riyadan nəfsini dur eylə, həqqaniyyətə yol aç,
Könüldən bəsləmə kin toxminə toxum məhəbbət saç,
Həmişə düz ol ilə seyr elə, seyr eyləmə qıyqac,
Gözət hər bir əməldə həqqü insaniyyət, ey millət!..

Kredo.-s.4.